# “Kişiləri vicdan əzabı ilə yükləyin”

## Elnur Rüstəmov qadınlarla kişilərin fərqlərini açıqladı

**Lalə MUSAQIZI**



*Mən sevim, sən sevmə, qoy belə olsun.*
*Sənə sev deməyə nə cürətim var?*
*Ürək özünündür, özün bilərsən,*
*Mənimsə əhdimdə sədaqətim var.*

*Mən tək sevən hanı səni dünyada?*
*Başımdan çıxmayır mənim bu sevda.*
*Ölsəm də açmaram sirrimi yada,*
*Səndən yar, sənə yar, şikayətim var.*

İslam Rzayevin həzin səsi otağa yayılıb. Qızlar bir araya gəlib psixoloq Elnur Rüstəmovu gözləyirlər. ”Səndən yar, sənə yar, şikayətim var” adlı seminar onlar üçün maraqlıdır. Çünki bu gün pulsuz-parasız əks cins, eləcə də özləri barədə söhbət açılacaq, ən əsası isə kişilər haqda istədikləri qədər danışacaqlar. Nəhayət, sevgililərini, nişanlılarını, həyat yoldaşlarını, qardaşlarını, atalarını müzakirə edəcəkləri, ”ürəklərinə su səpəcək” insan -E.Rüstəmov içəri daxil olur.

Seminarın adına toxunan psixoloq ”Səndən yar, sənə yar, şikayətim var” mahnısında şüuraltımızda öz əksini tapan bir çox məqamların olduğunu deyir və əsas mövzuya keçir: ”Xanımlar nə istəyir?”

Otaqdakı 40-a yaxın xanım xeyli şey sadalayır. Amma birinci yerdə diqqət gəlir. Beləliklə, xanımların kişilərdən istədiyi bunlardır: diqqət, azadlıq, qayğı, sevgi, güvən, anlayış, hörmət, xoşbəxtlik, səmimiyyət, hüzur.

E.Rüstəmov əslində xanımların çox şey istəmədiyini düşünür: ”Düzdür, xanımlarımız çox şey sadaladı, amma güvən olandan sonra burada yazdıqlarımızın əksəriyyəti olur. Güvən olanda ailədə söz-söhbət də öz həllini tapır”.

### İKİ CİNSİN SEVMƏK ANLAYIŞI EYNİ DEYİL

Daha sonra seminar kişi ilə qadının xarakteri, istəkləri arasındakı fərqin üstündə kökləndi. E.Rüstəmovun fikrincə, qadınların nə istədiyini bilmək üçün ilk növbədə onları tanımaq lazımdır: ”Qadının istəyi kişidən tamamilə fərqlidir. Tarixdə də belə bir hal var ki, qadın və kişi hərəsi ayrı-ayrı nöqtəyə baxır. Sonda bu nöqtələr birləşdirilərək qərar verilir. Qadınlarla kişilərin sevmək anlayışı belə eyni deyil. Arada münasibət yaranandan sonra kişilərin ilk işi qarşı tərəfi məhdudlaşdırmaqdır. ”Mənə deməmiş heç yerə getmə”, ”Sən zəng vursan, mən məşğul ola bilərəm, amma mən zəng vuranda həmin an telefona cavab verməlisən”. Kişilər az qalır ki, qadınlara telefonu qulaqlarına bağlamağı təklif etsinlər”.



Qadınlar da bəzən kişiləri məhdudlaşdırır: ”Xanımların məhdudlaşdırması isə kişilərin inkişafına səbəb olur. Xanımlar hər zaman istəyir ki, həyat yoldaşları irəli getsin. Kişilər isə adətən xanımlarının uğur qazanmasını istəmir. Qadın uğur qazansa da, kişi istədiyi vaxt onunla əşya kimi davrana bilər. Məsələn, gecə saat birdə ürəyi yumurta-pomidor istəyirsə, qadın onu bişirməlidir. Hansı ki, hər ikisi işdən yorğun gəlib. Yaxud kişinin ürəyi istəsə, həyat yoldaşına deyə bilər ki, sabah işə getməsin”.

### İNTUİSİYA KİMDƏ DAHA GÜCLÜDÜR?

Sən demə, qadınların intuisiyası da kişilərdən qat-qat üstündür: ”Tez-tez rastlaşırıq ki, kişilər ünsiyyətdə olduqları, dost dedikləri, iş qurduqları adamı yaxşı tanımırlar. Amma qadın bunu tez hiss edir, hətta yoldaşına məsləhət görür ki, həmin adamdan uzaq dursun. Kişinin isə başı daşdan-daşa dəyəndən sonra qarşı tərəfi tanıyır”.

E.Rüstəmov deyir ki, qadınlar kişilərə nisbətdə daha kinlidir. Deməli, qadın kinindən qorxmaq lazımdır: ”Kişi ürəyi isə yumşaqdır. Qadının qəddarlığında fədakarlığı gizlənib. Qadın balası üçün düşməninin də qapısına gedər. Az rastlaşmamışıq ki, övlad xəstə olanda kişi ailəni qoyub qaçıb, amma qadın balasını ata bilmir”.

Qadınla kişinin bir fərqi də ondadır ki, xanımlar paylaşmağı sevir: ”Kişilərin problemi olanda ürəklərinə salır, özləri həll etməyə çalışırlar. Qadının problemi olanda nə edir? Paylaşır. Psixoloqa ən çox müraciət edən də qadınlardır. Bir yeri ağrıyanda həkimə gedənlərin də əksəriyyəti xanımlarımızdır. Kişi adətən böyrü üstə qalana kimi həkimə getmir. Əslində kişilər qadınlardan daha zərifdir, xanımlar daha möhkəmdir. Buna görə qadınlar kişilərdən çox yaşayır”.



### QADINI XOŞBƏXT ETMƏK İSTƏYİRSƏNSƏ...

Qadınlarla kişilərin əyləncəsi də fərqlidir. Belə ki, xanımların əyləncəsi evdə, kişilərinki çöldədir. E.Rüstəmov deyir ki, qadını xoşbəxt etmək istəyirsənsə, evin dizaynını dəyişmək, yaxud bir gözəl qab dəsti almaq kifayətdir.

Kimin daha çox yığımcıl olmasına gəlincə, kişilər bu baxımdan əziyyət çəkir: ”Kişilərin əksəriyyəti yığımcıl olmur. Məhz buna görə evin maliyyə naziri birmənalı şəkildə qadın olmalıdır. Pul yığmaqdan söz düşmüşkən, bizim millətdə belə bir deyim var: ”Dar gün üçün pul yığmaq”. İnanın ki, kim bu sözü deyib pul yığırsa, o dar gün özünü çox gözlətmir, gəlir. Çalışın, pulu təzə ev almaq, gəzmək, cehiz almaq, bir sözlə, xoş günlər üçün niyyət edib yığın. Bu, düşüncəni yönləndirməkdir. Əgər xoş günləri niyyət edib yığsanız, inanın, xoş gün tezliklə gələcək”.

### ”HƏYAT YOLDAŞIM BÖYÜK UŞAĞIMDIR”

Arada xanımlar yerlərində sakit dura bilmir, sual-cavab məqamı gəlməsə də, suallarını verməyə tələsirdilər. Psixoloq xanımların ”Niyə qadınlar fədakardır” sualını cavablandırır: ”Yəqin tez-tez eşitmisiniz ki, qadınlar həyat yoldaşlarının böyük uşaq olduğunu bildirirlər. Qadın potensial anadır. Onlarda analıq instinkti yüksəkdir. Buna görə özlərindən asılı olmayaraq, bu instinkt sayəsində qayğı göstərməyi, yaxınlarının qeydinə qalmağı xoşlayırlar”.

”Xanımlar bu qədər əziyyət çəkdiyi, fədakarlıq etdiyi təqdirdə, niyə bəzi kişilər: ”Bəxtim olsaydı, qadın olardım” - deyir?” Bu sualı da xanımlardan biri verir. E.Rüstəmovun dediyinə görə, qadın olmaq kişilərin düşündüyü qədər asan deyil. Məsuliyyəti çoxdur. Qadın çox əziyyət çəkir və əvəzində dəyərləndirilmək, diqqət istəyir.

Başqa bir xanım isə həyat yoldaşına həddsiz dərəcədə qayğı, diqqət göstərdiyini və hərdən yoldaşının bu diqqətdən bezəcəyindən qorxduğunu bildirdi. E.Rüstəmov xanıma qorxmamağı, diqqət və qayğı göstərməyə davam etməyi məsləhət gördü: ”Kişiləri vicdan əzabı ilə üz-üzə qoymaq lazımdır. Bunun üçün onlara çox diqqət göstərin və vicdan əzabı ilə yükləyin”.

### KİŞİNİ FORMALAŞDIRAN QADINDIR

Psixoloqun dediyinə görə, qadın istəsə, kişini heç nə edər, istəsə də yüksəklərə qaldırar: ”Kişini formalaşdıran qadındır. Kişi tez yola gələn, amorfdur. Onu dəyişmək asan başa gəlir. Bu məsələdə 10 faiz tərs kişiləri və qadınları kənara qoyuram. Mücadilə ruhu da qadınlarda daha çoxdur. Kişilər yalnız işdə karyeraları üçün mücadilə apara bilirlər”.

Kişilərlə qadınların digər fərqi isə ondadır ki, kişilər riski xoşlayır: ”Bir də görürsən evi banka qoyub kredit götürür və hələ işə başlamamış necə qazanacaqlarından, gözəl yaşayacaqlarından ağızdolusu danışırlar. Qadınlar isə pul kisələrinə, situasiyaya uyğun risk edir, ağılla fikirləşirlər. Rəhbər kişilər ona görə çoxdur ki, kişilər risk etməyi xoşlayır. Öküz döyüşü, ralli kimi təhlükəli oyunlarında qadın görmüsünüzmü? Çünki heç bir qadın riski sevmir. Statistikaya baxsaq, görərik ki, kişilərin qəzalarının çoxu yüksək sürətlə maşını idarə etmələri səbəbindən baş verir. Qadınlar isə heç vaxt yüksək sürətə görə qəza törətmirlər”.

### KİM NƏ VAXT DEPRESSİYAYA DÜŞÜR?

Kreditin, borcun aktual olduğu bir vaxtda onu da öyrəndik ki, kişilər qadınlardan fərqli olaraq, borclanmaqdan qorxmur: ”Qadının kiməsə 10 manat borcu olsa, gecələr yata bilmir. Amma kişi 10 milyon borcla çox rahat yata bilir.

İki cins arasındakı fərqlərdən biri də budur ki, kişilər nadir hallarda depressiyaya düşür. Əsasən işlərini itirəndə və iş tapa bilməyəndə bu halla qarşılaşırlar. Qadınlar isə diqqət görməyəndə stress keçirirlər”.

Sonda natiq üzünü təkcə xanımlara deyil, kişilərə də tutaraq məsləhət gördü ki, pozitiv olsunlar, sevsinlər, sevilsinlər, həyatdan zövq alsınlar.

